**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# LAHIC MİSGƏRLİK SƏNƏTİ

İxtisas: 6218.01 – Dekorativ-tətbiqi sənət

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Ayten Əhməd qızı Abdullayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Sevil Yusif qızı Sadıxova**

Rəsmi opponentlər: sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Rəna Həbib qızı Abdullayeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Nuranə Miralı qızı Səlimli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Asya Əlimövsüm qızı Şirəliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
Xalq rəssamı, professor
**Fuad Məmməd Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri:
Xalq rəssamı, professor
**Arif Möhübəli oğlu Əzizov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Misgərlik sənəti Azərbaycan ərazisində dəmir dövründən başlayaraq formalaşmağa başlayan qədim xalq sənət növlərindən biri idi. Metallurgiya tarixində tuncun meydana gəlməsinə baxmayaraq, mis məmulatları tamamilə aradan çıxarılmamışdır. Hələ eramızdan əvvəl VI minillikdə misdən müxtəlif çeşidli əşyalar düzəldilir, məişət ehtiyaclarına xidmət edən sənət nümunələri hazırlanırdı.

Etnoqraf-alim A.N. Mustafayevin qeyd etdiyi kimi, *"Orta əsr feodal məişətinin artan tələbləri ilə əlaqədar olaraq, qədim misgərlik ənənələri inkişaf etmiş, sənət və ticarət mərkəzlərinə çevrilmiş Azərbaycan şəhərlərində çəmləşdirilmişdir, Orta əsrlərdə Təbriz, Ərdəbil, Marağa, Salmas, Bərdə, Beyləqan, Dərbənd, Şamaxı, Şəki, Gəncə, Bakı, Naxçıvan, bir qədər sonralar isə Quba və Şuşa şəhərləri mis məmulatı istehsalının başlıca mərkəzinə çevrilmişdir. Bunlarla yanaşı, Azərbaycanın mis məmulatı istehsalında Lahıc kəndi görkəmli yer tuturdu. XIX əsrdə Lahıc təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada misgərliyin başlıca mərkəzi sayılırdı"*[1]. Bu bölgənin maddi məişətini araşdıran tədqiqatçıların verdiyi məlumata görə, *"Kəndin 1000 nəfərədək sakini misgərlik və onunla bağlı peşələrlə... məşğul olurdu"*[2].

Tarixi məlumatlara əsaslanaraq qeyd edə bilərik ki, 1474-cü ildə venesiyalı səyyah Kontarininin Ağqoyunlu hökmdarı Uzun Həsənin sarayında qonaq olduğu müddətdə, hökmdarın ətrafına onun təşkil etdiyi qonaqlıqlarda 400 nəfərə yaxın adam toplaşırdı. Bu zaman süfrəyə yeməklər məhs mis qablarda gətirilirdi.

Azərbaycan misgərlərinin hazırladıqları mis məmulatları ötən əsrlərdə müxtəlif sərgilərdə uğurla nümayiş etdirilmişdir. XIX və XX əsrin əvvəllərində sərgilənən mis qablar yüksək mükafatlara layiq görülmüşdür. Bu sırada misgərlərimizin 1850-

---

[1] Mustafayev, A.N. Misgərlik. // Azərbaycan etnoqrafiyası. I cild. – Bakı: Elm – 1988, s.358

[2] Абелов, Н.А. Исследование экономического быта государственных крестьян Геокчайского и Шемахинского уезда Бакинской губернии // МИЭБГКЗК, т.VI, ч.II, Тифлис – 1887, с.182; Хатисов, К. Кустарные промыслы Закавказского края. Отчеты исследования по кустарной промышленности в России. II ч. – Санкт-Петербург – 1894, s.90

ci ildə keçirilən Zaqafqaziya diyarı əsərlərinin sərgisindəki, 1873-cü ildə Avstriyanın Vyana şəhərində keçirilən Ümumdünya sərgisindəki uğurunu qeyd etmək lazımdır.

Lahıc misgərlərinin incə nəfis naxışlarla tərtib edilmiş müxtəlif çeşiddə hazırladıqları qab-qacaq, o cümlədən dolça, satıl, sərnic, məcməyi, sərpuş, güyüm, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və bir çox başqa məmulatlar zamanında Orta Asiya, Dağıstan, Gürcüstan, İran, Türkiyə və digər ölkələrdə geniş şöhrət tapmışdır. Bunu Avropanın bir çox ölkələrinin muzeylərində və şəxsi kolleksiyalarda qorunub saxlanan mis eksponatlar sübut edir. Xoş haldır ki, vaxtılə mis ustalarının yaratdıqları məmulatların üzərində öz adlarını qeyd etmək bir ənənə halına çevrilmişdir, bu baxımdan əşyaların kimə mənsub olduğunu, kimin əlindən çıxdığını, hansı ustanın yaradıcılıq nümunəsi olduğu haqda məlumat əldə etmək mümkündür. Əsası da odur ki, bu kimi məlumat hal-hazırda dünya muzeylərində saxlanılan misgərlik məmulatı bu növ maddi-mədəniyyətinin, dekorativ-tətbiqi sənətinin təkrarolunmaz inciləri kimi məhz Azərbaycana mənsub olduğunun sübutudur.

Misdən hazırlanan çeşidli məişət əşyalarının 40-dan çox növünü etnoqraf-alimlər beş qrupda cəmləşdirərək aşağıdakı kimi bölüblər: xörək qabları, süfrə qabları, su qabları, ağartı qabları və məişət əşyaları.

Vaxtılə Azərbaycanda kütləvi hal alan misgərlik sənəti müxtəlif bölgələrin mərkəzlərində məhəllələrdə birləşib mürəkkəb naxışlı sənət əsərləri səviyyəsinə yüksələn məmulatlar hazırlanırdı. Belə mərkəzlərdən biri vaxtılə Şamaxı xanlığına daxil olan, hazırda isə İsmayıllı rayonunun ən qədim sənətkarlıq və yaşayış məntəqələrindən biri olan Lahıc idi. Burada hələ XIX əsrin ortalarında 190-a yaxın mis karxanası olub.

Müasir dövrdə istehsal baxımından daha ucuz və əlverişli olan şüşə və keramika qablarının geniş vüsət alması ilə əlaqədar misgərlik məmulatları geniş miqyasda istifadə olunmur. İstehsalı zamanı üzərindəki bədii tərtibatına sərf olunan gərgin əmək, səbir, incə zövq bu kimi məmulatların qiymətini və dəyərini artırır ki, bu qablar əsasən ölkəmizə gələn xarici səyyahların, muzey və şəxsi kolleksiyaçıların

marağına səbəb olur. Bu səbəbdən misgərliklə məşğul olan ustaların sayı azalır, eyni zamanda mis qab-qacaqların sayı və çeşidi də azalmaqdadır və bu sənətinin getdikcə əhəmiyyətini itirmək təhlükəsi yaranıb.

Hazırda misgərliklə məşğul olan bölgələrdən biri olan Lahıcda misgərlik əvvəlki gücünü saxlamasa da, o, qədim el sənətinin daşıyıcıları tərəfindən yaşadılmaqdadır. Burada çalışan ustalar ənənəvi mis məmulatlarının əksər çeşidlərini hazırlamaqda davam edir, onların üzərini mürəkkəb naxışlı bədii tərtibatla bəzəməyə çalışırlar. Lahıc misgərlik sənətinin əsrlərdən bəri qorunub-saxlanılan forma və ornamental xüsusiyyətlərini qoruyub-saxlayaraq, yaşatmaq, onlara yeni nəfəs verməyə çalışırlar. Bu sənətkarların yaradıcılığını araşdırmaqla keçmişdən gələn bədii ənənələri üzə çıxarmaq, tədqiq və təhlil etmək imkanı yaranır. Bu baxımdan tədqiqata çıxarılan dissertasiya mövzusunu aktual hesab etmək olar.

Azərbaycanın metalişləmə sənəti, o cümlədən misgərlik sənəti bir çox tarixçi, etnoqraf və sənətşünsların tədqiqat obyekti olmuş, Azərbaycan və xarici tədqiqatçıların əsərlərində təsvir olunub və öyrənilib, məsələn: O.A. Abibullayevin[3], F.R. Mahmudov, R.M. Munçayev və İ.Q. Nərimanovun[4], Ş.G. Sadıxzadənin[5], Q.O. Qoşqarlının[6], R. Göyüşovun[7], K. Xatisovun[8], H.A. Quliyevin[9], A.N. Mustafayevin[10], F.A. Ibrahimovun[11], M.H. Heydərovun[12] və bir çox başqa əsərlərdə metalişləmə sənəti arxeoloji nöqteyi-nəzərdən araşdırılmışdır.

---

[3] Абибуллаев, О.А. К вопросу о древней металлургии Азербайджана // МИА, 1965, № 125

[4] Нариманов, И.Г., Селимханов, И.Р. К применению первых металлов в быту населения Восточного Закавказья. // ДАН Азерб. ССР – 1965, №4

[5] Садыхзаде, Ш.Г. Древние украшения Азербайджана. / Ш.Г.Садыхзаде –Баку: Ишыг – 1971.

[6] Кошкарлы, К.О. Античная и раннесредневековая торевтика из Азербайджана / К.О.Кошкарлы – Баку: Элм – 1985.

[7] Göyuşov, R. Azərbaycan arxeologiyası / R.Göyuşov – Moskva – 1986.

[8] Хатисов, К. Кустарные промыслы Закавказского края. Отчеты исследования по кустарной промышленности в России. II ч. – Санкт-Петербург – 1894.

[9] Quliyev, H.A. Metal və xalq sənətkarlığı / H.A. Quliyev – Bakı: Elm – 1968 – 108 s.

[10] Mustafayev, A.N. Misgərlik. // Azərbaycan etnoqrafiyası. I cild. – Bakı: Elm – 1988 – s.357-363.

[11]Ibrahimov, F.A. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər) / F.A. İbrahimov – Bakı: Elm – 1988 – 176 s.

[12] Гейдаров, М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. / М.Х. Гейдаров – Баку: Элм – 1967; Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XVII-XVIII вв. / М.Х. Гейдаров – Баку: Элм – 1987 – 210 с.

Metaldan olan sənət nümunələrinə sənətşünaslıq yanaşmanı R.S. Əfəndinin[13], S.Əsədovanın[14], S.Y.Sadıxovanın[15], M.K.Məmmədbəylinin[16] və b. fundamental elmi işlərində rast gəlmək olar.

Yuxarıdakı araşdırmalarda Azərbaycanın bədii metal sənəti haqda geniş tədqiqatlar aparılsa da, Laçın misgərliyi haqda ötəri məlumar verilmişdir. Tədqiqata cəlb edilmiş mövzu ilə bağlı çoxsaylı mətbuat orqanlarında məlumat, məqalələr şəklində informasiyaya rast gəlmək mümkündür. Bu sırada M.H. Əfəndiyevin[17], Z.A. Əliyevin[18], Ə.Ədilzadənin[19], B.Hünbətoğlunun[20], İ.Sarıyevanın[21], H.Paşayevin[22] yazılarını göstərmək olar.

Bundan əlavə bölgədə fəaliyyət göstərən müxtəlif yerli sənətkarların yaradıcılıq üslubu haqqında da məlumatlara, əsasən də böyük əhəmiyyət daşıyan müsahibələrə sıx rast gəlinir. Lakin tədqiqatın mövzusu Azərbaycan sənətşünaslığında ayrıca və əhatəli şəkildə araşdırmaya cəlb olunmamış, fundamental tədqiqat kimi işlənməmişdir. Bu baxımdan mövzunun aktuallığı danılmazdır.

---

[13] Əfəndi, R. Azərbaycanın dekorativ-tətbiqi sənətləri / R.Əfəndi – Bakı – 1976; Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində / R.Əfəndi – Bakı – 1980; Rasim, Əfəndi. Azərbaycan xalq sənəti / R.S.Əfəndi – Bakı – 1984; Эфендиев, Р.С. Народное искусство Азербайджана / Р.С.Эфендиев – Баку: Ишыг – 1984 – 204 с.

[14] Əsədova, S. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti / S.Əsədova – Bakı: Elm – 1978 – 96 s.

[15] Sadıxova, S.Y. Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından zərgərlik inciləri / S.Y. Sadıxova – Bakı – 2020 – 140 c.; Садыхова, С.Ю. К проблеме изучения декоративно-прикладного искусства Азербайджана // Материалы научной конференции и каталог художественной выставки, посвященной 80-летию президента Азербайджанской Республики Г.А.Алиева (15-16 мая 2003 г.). – Баку – 2003 – с. 73-76; Ювелирное искусств Азербайджана в контексте развития многосторонних культурных взаимосвязей / С.Ю. Садыхова – Баку: Элм – 2009 – 275 с.; Бесконечно живая нить традиций // «Азербайджан и азербайджанцы» – орган Президиума НАН Азербайджана. № 1-4 – Баку – 2008 – с.184-193.

[16] Мамедбейли, М. К. изучению Лагича XVIII – XIX вв. // Актуальные проблемы развития архитектуры и искусства Азербайджана. Сборник материалов конференции молодых учёных. – Баку: Элм –1979.

[17] Эфендиев, М.Г. Селение Лагич Геогчайского уезда Бакинской губернии // СМОМПК, вып. XXIX –Тифлис – 1901 – с.45-96.

[18] Əliyev, Z. El sənəti-el şöhrəti // Ədəbiyyat. –2015, 13 fevral – s.5.

[19] Ədilzadə, Ə. Lahıc misgərlik sənətinin izi ilə... // Ədalət. – 2018, 29 iyun. s.4.

[20] Hünbətoğlu, B. Uğuruna alqış, Vətən!... yaxud misgərlik sənətimiz UNESCO-da // Bakı Xəbər. 2015, 29 dekabr. № 235. S. 15.

[21] Sarıyeva, İ. Qədim sənət növümüz olan misgərlik UNESCO-ya doğru... // Bakı Xəbər – 2015, 28-29 dekabr. № 234.- S. 15; Ənənəvi xalq sənəti - misgərlik... // Bakı xəbər. 2015. 13 may, s.15.

[22] Paşayev, H. Qədim sənətkarlıq mərkəzi // – Bakı: Qobustan – 2013., s. 91-93.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas tədqiqat obyektini XVIII-XIX əsrlərdən başlayaraq günümüzədək Lahıcda istehsal edilmiş mis məmulatları təşkil edir. Tədqiqatın obyektinin böyük qismini müxtəlif dövrlərdə mərkəzdə yaradılan və hazırda Azərbaycan və dünyanın müxtəlif muzeylərində və şəxsi kolleksiyalarda saxlanılan misgərlik sənət məmulatlar təşkil edir.

Tədqiqatın predmeti kimi XVIII-XIX əsrlərdən başlayaraq günümüzə qədər Azərbaycan metal sənətinin, eləcə də Azərbaycan dekorativ-tətbiqi sənətinin inkişafında Lahıc misgərlik sənətinin rolunu və yerini araşdırmaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi qədim sənətkarlıq mərkəzi olan Azərbaycan Respublikasının İsmayıllı rayonunun inzibati ərazisində yerləşən Lahıc qəsəbəsinin misgərlik sənətinin araşdırılması, qədim mis məmulatların dekorativ bədii-həllində onları səciyyələndirən naxış elementlərinin tədqiq edilməsi, eləcə də Lahıc misgərlik sənətinin bugünkü inkişaf prosesini araşdıraraq onun Azərbaycan dekorativ sənətində yerini və əhəmiyyətini müəyyənləşdirmək, bu istiqamətdə fəaliyyət göstərən yerli sənətkarların yaratdıqları maddi-mədəniyyət nümunələrini dəyərləndirmək təşkil edir.

Lahıc misgərlik sənətinin əsas səciyyəsini, bölgədə istehsal edilən misdən hazırlanmış müxtəlif çoxsaylı maddi-mədəniyyət nümunələrinin ornamental və forma xüsusiyyətlərinin və müasir inkişaf prinsiplərinin müasir Azərbaycan dekorativ-tətbiqi sənəti kontekstində öyrənilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- Lahıc misgərlik sənətinin bədii-estetik xüsusiyyətlərinin araşdırılması istiqamətində burada yaradılan maddi-mədəniyyət nümunələrinin forma və ornamental xüsusiyyətlərini müəyyənləşdirmək;
- Lahıc misgərlik məmulatlarında istifadə edilən insan və heyvan təsvirlərinin bədii xüsusiyyətlərini araşdırmaq;
- Lahıc misgərliyinin ənənə və müasirlik kontekstində araşdırılması zamanı müasir dövr Lahıc misgərlik sənətinin əsas inkişaf prosesini müəyyənləşdirmək;
- Müasir dövr Lahıc misgərliyində istifadə olunan ənənəvi bəzək elementlərini təhlil etmək;

- Lahıc misgərlik sənətinin müasir Azərbaycan dekorativ-tətbiqi sənətində yerini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını sənətşünaslıq təhlili, müqayisəli təhlil, məntiqi təfəkkür, yerli sənətkarların fəaliyyətini əsaslandıran yaradıcılıq nümunələrinin sənətşünaslıq kontekstində təsviri təşkil edir. Əsas metodoloji əsas kimi sənətşünaslıq təhlili metodu götürülmüşdür. Tədqiqat zamanı kompleksli metoddan istifadə edilmiş, yəni əyani material əhatəli şəkildə təhlil olunmuşdur. Lahıc misgərliyinin səciyyəsini əsaslandıran çoxsaylı mis məmulatlar təhlil edilmişdir. Əlavə olaraq, arxiv sənədləri araşdırılaraq təhlil olunmuş, mətbuat ümumiləşdirilərək şərh edilmiş, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Azərbaycanın qədim sənətkarlıq diyarı olan Lahıc misgərliyin başlıca mərkəzi sayılır;
- Lahıc misgərlik sənətində ənənəvilik sırf milli ornament xüsusiyyətlərinin klassik formaları üzrə davam etdirilir;
- Lahıcda istehsal edilən mis məişət əşyalarının funksionallığı ilə dekorativliyi uğurlu vəhdət təşkil edir;
- Lahıcda yaradılmış misgərlik məmulatları üzərində əks edilmiş zoomorf təsvirlər dekorativ səciyyə ilə bərabər simvolik mahiyyətə də malikdir;
- Lahıcda yaradılmış misgərlik məmulatların üzərində rast gəlinən insan təsvirləri üslub baxımından orta əsr Şərq miniatürlərindən alınma təsirlər əsasında həyata keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki,

- ilk dəfə olaraq Lahıc misgərlik sənəti sənətşünaslıq baxımından tədqiqata cəlb olunub:
- müasir Azərbaycan dekorativ-tətbiqi sənətinin böyük dövrünü əhatə edən misgərlik sənəti əhatəli şəkildə araşdırılıb;
- ilk dəfə olaraq elmi araşdırmalar zamanı Lahıcda yaradılan indiyə qədər tədqiq olunmamış mis məmulatlar təsvir və təhlil olunmuşlar;

- ilk dəfə olaraq Lahıc misgərlik sənəti ayrı-ayrı inkişaf mərhələlərinə bölünərək tədqiq edilib, onun müxtəlif istiqamətləri və səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilmişdir;
- ilk dəfə olaraq Lahıc misgərlik sənətinin bədii tərtibatında xüsusi əhəmiyyətə malik insan və heyvan təsvirlərinin bədii xüsusiyyətləri tədqiq və təhlil edilib;
- ilk dəfə olaraq Lahıc misgərlik sənəti ayrı-ayrı nümunələrinin bədii tərtibatında yer almış zoomorf təsvirlərin semantikası araşdırılıb;
- Müasir dövr Lahıc misgərlik sənətinin əsas inkişaf istiqamətləri müəyyən edilib;
- Azərbaycan bədii metal sənətinin inkişafında Lahıc misgərlik sənətinin yeri və rolu müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırki tədqiqat Azərbaycan incəsənət tarixini genişləndirərək Azərbaycan dekorativ-tətbiqi sənətin bir bölümü olan bədii metal sənətinin inkişafında Lahıc misgərlik sənətinin rolunu, yerini və üslub xüsusiyyətlərini müəyyən edir. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan dekorativ-tətbiqi sənətinin zənginliyini, növ müxtəlifliyi diapazonunu və milli-ənənəvi xüsusiyyətlərə dayanan səciyyəvi xüsusiyyətlərini genişləndirmiş olur.

Tədqiqat rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam və sənətşünas tələbələrə “Azərbaycan bədii metal sənəti” mövzusunda xüsusi kurslar çərçivəsində tədris oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas məzmunu, elmi müddəa və nəticələri 11 məqalədə öz əksini tapmış, mövzu üzərindəki axtarışları əks etdirən məruzələr müxtəlif səpkili elmi konfranslarda dinlənilmişdir. Dissertasiya işi sənətşünas ixtisasına yiyələnən və dekorativ-tətbiqi sənətlər üzrə təhsil alan tələbələrin tədrisi prosesində, elmi-tədqiqat işlərinin aparılması zamanı tədbiq oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının “İncəsənət tarixi” kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, dörd paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: Giriş – 11.246, 1.1. – 71.840, 1.2. – 39.733, 2.1 – 41.983, 2.2. – 36.437, Nəticə – 9.322, Ədəbiyyat – 9.624 işarə olmaqla dissertasiyanın ümumi həcmi 212.104 işarədən ibarətdir. Tədqiqatın məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində ayrıca cilddə (dissertasiyaya əlavədə) təqdim olunmuşdu.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

Girişdə mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

Dissertasiyanın "**Lahıc misgərlik sənətinin bədii-estetik xüsusiyyətləri**" adlı **I fəslin "Lahıc misgərlik məmulatlarının forma və ornamental xüsusiyyətləri"**nə həsr olunmuş **1 paraqrafı** üzrə araşdırma zamanı bölgədə hazırlanan mis məmulatların naxış elementləri, ornamental xüsusiyyətləri haqqında məlumatlar verilmişdir.

Azərbaycanın İsmayıllı rayonun inzibati ərazisi olan Lahıc qəsəbəsində XVIII-XIX əsrlərdən ənənəvi misgərlik məmulatlarının istehsalı yalnız burada mərkəzləşdirilmişdir. Hətta qəsəbənin "Misgər bazarı" adı ilə məşhur olan Ağalı rayonunda xüsusi olaraq qədim məmulatlarının klassik ənənələrə sadiq formalarla həyata keçirilməsi böyük maraq doğurmaqla bərabər bu sənəti yaşadanların, itərək aradan çıxmasına imkan verməyən sənətkarların böyük yaradıcı əhəmiyyəti kimi də dəyərləndirilir. Həmin nümunələrin naxış elementləri, ornamental xüsusiyyətləri də sırf ənənəvi, klassik üslubun əsasını qoruyaraq özündə saxladığı üçün xüsusi dəyərə malikdirlər. Bu ənənəviliyin sırf milli ornament xüsusiyyətlərinin klassik formalar üzrə davam etdirilməsi, yeni, müasir formada improvizələrin edilməməsi düşüncə tərzinin yeniliyi inkar etməsi kimi deyil, burada müasir zamanda sıxışdırılaraq aradan çıxarılmağa və yaxud unudulmağa başlanmış sənətin itməsinə imkan verməmək kimi əhəmiyyətli bir fəaliyyət dəyərləndirilir.

Tarixi qədimlərə dayanan Lahıc misgərliyində istehsal edilən məişət əşyalarının funksionallığı ilə yanaşı onların dekorativliyi olan uğurlu əlaqə dolğun məmulatların əsrlər boyu sənətsevərlərin diqqətini özünə cəlb edir. Bu məmulatlar kiçik bir duzqabından tutmuş çıl-çıraqlara qədər müxtəliflik daşıyır. Qədim məlumatlar arasında diqqəti çəkən əşyalardan olan samovarların bu gün belə yüksək ustadlar tərəfindən həyata keçirilməsi maraq doğurur. Metalın xüsusiyyətlərinə yaxşı bələd olan ustaların incə zövqlə, göz nuru ilə həyata keçirdikləri məmulatların hər biri sənət əsəri səviyyəsində dəyərləndirilir.

Ümumiyyətlə, misgərlik məmulatları 4 əsas qrupa bölünür ki, bunlardan su və yaxud digər mayeləri saxlamaq üçün qablar, mətbəxdə istifadə olunan avadanlıqlar, süfrələrdə istifadə edilən tabaq və s. kimi avadanlıqlar və ev-məişət əşyalar kimi təsnif olunur. Bütün avadanlıqlar öz funksionallığı baxımından olduqca maraqlı şəkilləri ilə yanaşı, həm də naxış xüsusiyyətləri, bəzəklərin nəfis, zərif, incə, eləcə də ənənəvi tərtibatı ilə diqqəti cəlb edir.

Birinci qrupa daxil olan səhəng, kuzə, satıl, sərnic, dolça kimi məmulatların Lahıcda istehsal olunan müxtəlif nümunələri bir çox muzey və şəxsi kolleksiyalarda qorunmaqdadır. Bunların içərisində Şəfəq Qurbanovanın şəxsi mis kolleksiyasına daxil olan əşyalar də özünün maraq dolu formaları ilə nəzəri cəlb etməkdədir. Kolleksiyaya daxil olan mis səhəng özünün nağılvari möhtəşəmliyini həm formasında, həm də üzərindəki incə naxış elementlərində diqqətə çatdırır. Enli aşağı hissə məcməyinin yuvarlaq forması getdikcə daralaraq daha uzunsov, dar boğazı ilə yuxarı hissəyə qədər davam edir. Onun lüləyi daha uzun olaraq başlığın hündürlüyündən də bir qədər artmışdır. Maraqlı hissələri səhəngin sapı və qapağıdır ki, onları olduqca incə, zərif forması özü ornamental formaların əsaslarında həll edilmişdir.

Misgərlik məmulatlarının ikinci qrupuna daxil olan mətbəxdə istifadə olunan avadanlıqlarının daha çox funksionallığa üstünlük verilməsi faktı olsa da burada da hər zaman ustaların müxtəlif üsullarla ənənəvi bəzək elementləri əsasında məmulatları dekor edərək ona estetik dəyər bəxş etdikləri məlum məsələdir. Buraya müxtəlif cür qazanlar, tavalar, qaşıq, bıçaq, kəfgir kimi nümunələrlə yanaşı, qəhvə

dəmlikləri, məcməyilər və s. daxildir. Misal üçün müasir dövrdə həyata keçirilmiş, belə bir dəmliyin üzərindəki sadə həndəsi elementlərin cərgələrlə sıralanması onun çox da mürəkkəb olmayan zərif görüntüsünü meydana çıxarmışdır.

Ənənəvi misgərlik məmulatları arasında süfrə qabları üçüncü qrupu təşkil edir. Bu qablar istifadəsinə görə fərdi və kollektiv səciyyə daşıyırdı. Cam, kasa, nimçə, fincan, şərbəti, piyalə, masqura və digərləri fərdi süfrə qablarına aiddirlər. Məcməyi, sini, sərpuş, ləngəri, dəhmərdan və sair, kollektiv istifadə üçün nəzərdə tutulmuş qablardır.

Camlar böyük, orta və kiçik ölçülərdə olaraq, daxili səthi saya, xarici isə naxışlı olurdu. Camın orta ölçülü növü – kasa, kiçik ölçülü – piyalə və ya masqura adlanırdı.

Süfrə qabları arasında çoxluq təşkil edən mis qablardan biri olan nimçə əsasən şəhər ailələri arasında dəbdə olmuşdur. O, xörək qabı olaraq isti və soyuq yeməklər üçün istifadə olunurdu. İsti xörəklər üçün istifadə olunduqda, qidanın isti qalması üçün nimçənin üstü sərpuşla örtülərdi. Belə sərpuşların nəfis bəzədilmiş bir neçə nümunəsi muzey kolleksiyasında saxlanılır.

Süfrədə istifadə olunan qablar arasında "gülabdan" adlanan qaba da rast gəlinir. Əvvəllər əsasən süfrədə, yemək yeyəndən sonra əllərə tökülən ətirli gülab (qızılgül suyu) sonralar daha çox yas məclislərində istifadə olunmağa başlayır. Böyük ölçülü ətir qabına oxşayan gülabdan dəfn mərasiminin sonunda "paklanma" üçün istifadə olunur. İncə, nazik və hündür boğazlı gülabdan bu gün də həmin məqsədlə dəfn mərasimlərində istifadə olunmaqdadır.

Ənənəvi elementlərdən istifadə edərək fərdi yaradıcılıq üslubunda həyata keçirilmiş məmulatlar sırasında təbii ki məcməyilər də geniş yer alır. Qeyd olunduğu kimi burada sənətkarlar rəng dəyərlərindən təzadlı çalarlardan uğurla istifadə etməkdədirlər. Məsələn, belə nümunələrdən birində istifadə edilmiş butaların xüsusi formada tünd fon üzərində əks etdirilmişdir. Mərkəzdəki dairənin daxilində mərkəzdən bir nöqtədən yelpik kimi üst-üstə açılmış butanın stilizəsi daxilində qızılı rəngli incə yarpaqlarla daha da zənginləşdirilmişdir. Burularaq hərəkətli formada verilən bu hissə məmulatın naxış kompozisiyasına dinamika bəxş

etmişdir. Bu hərəkətlilik geniş haşiyənin qızılı fon üzərində qara rəngli qızılı konturlarla həll edilmiş butalarla harmonik ifadəni meydana çıxartmışdır. Ensiz bala haşiyədə isə elementlərin daha aydın ifadə olunması üçün daha sadə və fon ilə eyni rəngdə olan bir qədər tünd yerlikli sadə formalardan istifadə edilmişdir.

Lahıcda yaradılan misgərlik məmulatlarının dördüncü qrupuna aid olan ev-məişət əşyaları arasında güldanlar, vazalar xüsusi zövqlə həyata keçirilmişdir. Bunlardan parlaq qızılı səthi ilə üzərindəki döymə naxışların xüsusi harmoniya yaradan forması ilə diqqəti cəlb edən güldanı göstərmək olar. Güldanın oval gövdədən yuxarıya doğru daralan boğaz hissənin üst qisimdə bir qədər enliləşmə məcməyinin əks etdirən klassik formasına baxmayaraq onun üzərindəki zəngin naxış elementləri məmulatı dəyərləndirmişdir. Tağa bənzər yarımdairələrin sıralanması ilə hər cərgədə yaradılmış çərçivələrin arasında ləçəkli çillərin təsviri eyni formada təkrarlanmışdır. Yuxarıya doğru yarımdairələr sanki dartılaraq daha düz formalara keçid almaqla dinamik naxış kompozisiyasını meydana gətirmişdir.

Ənənəvi, klassik üslubun əsasını qoruyaraq özündə saxlayan yeni nümunələrin meydana çıxdığını sübut edən müasir inkişaf prinsipləri üzrə təhlillər paraqrafda yer alıb. Gəlinmiş nəticəyə əsasən qeyd etmək olar ki, milli ornamentasiya xüsusiyyətləri təbii ki, dekorativ sənətin bütün sahələrində oxşar formalarla özünü göstərmişdir. Lakin hər bir sahə üzrə sırf bu sənətin naxış elementlərini səciyyələndirən xüsusiyyətlərin də mövcud olması faktdır. Tarixi çox qədimlərə dayanan Lahıc misgərliyində istehsal edilən məişət əşyalarının funksionallığı ilə yanaşı onların dekorativliyi arasında olan uğurlu əlaqə dolğun məmulatların əsrlər boyu sənətsevərlərin diqqətini özünə cəlb edir. Bu məmulatlar kiçik bir duzqabından tutmuş çılçıraqlara qədər müxtəliflik daşıyır. Qədim məlumatlar arasında diqqəti çəkən əşyalardan olan samovarların bu gün belə yüksək ustadlar tərəfindən həyata keçirilməsi maraq doğurur. Metalın xüsusiyyətlərinə yaxşı bələd olan ustaların incə zövqlə həyata keçirdikləri məmulatların hər biri sənət əsəri səviyyəsində dəyərləndirilir. Misal olaraq, süfrədə istifadə edilən qab-qacağın dekorativ tərtibatı üzrə tədqiqata cəlb olunan nümunələrdən olan geniş istifadə edilən sərpuşlardan birinin bədii tərtibatında istifadə edilmiş ornamentasiya həllində zəngin elementlərin

istifadəsi diqqət çəkir. Ornamental kompozisiyanı meydana çıxaran naxışlar cərgə ilə sıralanaraq, nəbati elementlərin bəzi yerlərdə həndəsiləşdirilmiş, bəzi hissələrdə isə real formaları ilə üzə çıxır.

Mətbəxdə istifadə edilən avadanlıqlar arasında yemək, xəmir məmulatları hazırlamaq, saxlamaq məqsədilə hazırlanan məmulatlar üzrə aparılan təhlillər Lahıcda fəaliyyət göstərən yerli sənətkarlar tərəfindən böyük məharətlə hazırlanaraq zövq oxşayır. Məsələn, məcməyilərin bədii tərtibat xüsusiyyətləri xüsusi olaraq öz estetikliyi ilə fərqlənirlər.

Dissertasiyanın birinci fəslinin **2 paraqrafı "Lahıc misgərlik məmulatlarında istifadə edilən insan və heyvan təsvirlərinin bədii xüsusiyyətləri"** mövzusuna həsr olunmuşdur. Məlum olduğu kimi misgərlikdə istifadə edilən naxışlar əsasən həndəsi və nəbati detallardan ibarət olmuşdur. Lakin dekorativ tərtibat bununla məhdudlaşdırılmamış, insan təsvirləri, onların geyim tərzi, quşların, heyvanların təsvirinə də sıx rast gəlinir. Məsələn, nümunə olaraq göstərilən dəmliyin üzərində "Xəmsə"dən alınmış obrazların tərənnümünü ifadə edən səhnələrin hər biri oval çərçivələr daxilində iki sırada yer alması diqqəti cəlb edir. Fərqli səhnə təəssüratları ifadə edilmiş nümunədə orta əsrlər miniatür üslubunun təsirləri özünü göstərir. Və yaxud məişətdə əl-üz yumaq üçün istifadə edilən mis aftafa və ləyənlərin üzərində yer alan təsvir səkkizguşəli ulduz və türkçülüyün simvolu olan boz qurdun bədii ifadəsi ilə meydana çıxır. Dağınıq atılmış nöqtələrin vasitəsilə yaradılmış arxa fon gecənin ulduzlu göy üzünü simvolizə edir. Və ya nisbətən fərqli kompozisiyada verilmiş boz qurd təsviri digər aftafa və ləyənin dekorativ kompozisiyasında yer almışdır. Burada da nöqtələrin vasitəsilə həll edilmiş məkan sanki boşluqda qaya üzərinə çıxaraq üzünü göyə tutmuş boz qurdun gecə ulduzlu səma altında tərənnümünü əks etdirir. Belə nümunələrdə həll edilən süjetli kompozisiyalara da rast gəlinir ki, burada bitki və heyvan təsvirlərinin sintezi ilə dinamik kompozisiyalar tamaşaçılarında böyük maraq oyadır. Mis kasalardan birinin üzərində verilmiş bürc və onu simvolizə edən səhnələrin yer alması da olduqca maraqla qarşılanır. Qeyd edilən kasa on iki bərabər üfüqi istiqamətə doğru hissələrə ayrılmışdır. Hər hissənin yuxarı qismində bürclərin

özünəməxsus təsvirləri, dördbucaqlıların üzərində isə verilmiş dairələrin daxilində hər bir bürcün ifadəsi əsasən heyvan və insan təsvirlərinin real forması ilə canlandırılmışdır.

Digər qədim misgərlik nümunəsi olan məcməyinin üzərindəki təsvirin mürəkkəb kompozisiyası diqqəti xüsusi olaraq cəlb edir. Məmulatın üzərində qədim Şərq memarlıq üslubundan istifadə də stilizə təsvirləri meydana çıxardır. Şərq memarlıq üslubunu xarakterizə edən günbəzlər, tağlı arakəsmələr mərkəzdə sıra ilə düzülmüşdü. Yuxarı qismin ifadəsində pəncərələri, taxçaları tərənnüm edən formalar yer almışdır. Burada həm nəbati, həm həndəsi ornamentlərdən, eyni zamanda da quş, heyvan təsvirlərindən, eləcə də milli dekorativ-tətbiqi məişət əşyalarından ustalıqla istifadə edərək məcməyinin qeyri-adi forması ilə nəzərə çarpır. Tağlı formalar mərkəzdə daha iri sağ və sol hissələrə isə iki-iki olmaqla həll edilmişdir. Tağların haşiyələrində dalğalı formada olan həndəsi elementlərdən istifadə edilərək zənginləşdirilmişdir. Mərkəzi tağın daxilində həyat ağacının simvolik təsviri verilmişdir. Özünəməxsus gözəl formada zərifliyi ilə simvollaşdırılmış təsvir xalça, səhəng kimi elementlərin də öz əhatəsində əks etdirir. Digər mərkəzə yaxın olan tağların da daxilində səhəng, asılan çılçıraq və nəbati elementlərin həndəsiləşdirilmiş formalarından istifadə edilmişdir. Tağların aşağı qismində dalğalı xətti düz haşiyənin altında isə quş və heyvan təsvirləri yerləşdirilmişdir. Düz xətt ilə ayrılan son hissədə isə sıralanmış balıqların cərgədə düzülüşü əks olunaraq əsərin özünəməxsus dərin məna ifadəsinə yönəlmiş yüksək bədii tərtibatını meydan çıxardır. Bununla sənətkar yaşamı, həyatı, dünyanı bir məcməyinin üzərindəki dərin mənalı mürəkkəb kompozisiyası ilə böyük ustalıqla ifadə etməyə nail olmuşdur. Əsərdə təsvirlər məqsədli şəkildə yer almışdı. Məsələn, dənizin dibini əks etdirən balıqların tərənnümü məcməyinin ən alt hissəsində həll edilmişdir. Onun üzərində isə torpaq üzərindəki yaşamı əks edən heyvanların təsviri verilmişdir. Məcməyinin digər elementlərdən sonra canlıları əks etdirən quşların təsviri ən üst qatda yer almışdır.

Məişətdə əl-üz yumaq üçün istifadə edilən mis aftafa və ləyənlərin forma və bəzək elementlərinin dəqiq və yüksək sənətkar məharəti ilə işlənilib. Burada

estetiklik, həm ornament xüsusiyyətləri, həm də müxtəlif təsvirlərin verilməsi ilə diqqəti cəlb edir. XIX əsrə aid aftafa və ləyənin quruluşunda incə zövq özünü aydın şəkildə göstərir. Ləyənin forması sıralanmış yarpağa bənzər xüsusi formalı elementin ardıcıl düzülüşü ilə həll edilmişdir. Onların üzərində eyni formalı stilizə edilmiş həndəsi bəzəklərin incə forması bir qayda olaraq təkrarlanmaqdadır. Elementin özü də formanın arasında xüsusi haşiyənin daxilində verildiyindən özünəməxsus zərif görüntü meydana çıxarmışdır. Ləyənin mərkəzində açıq olan hissə kəskin bucaqlı səkkizguşəli ulduz formasında həll edilmişdir ki, bu da aftafanın gövdəsində verilmiş təsvirlə uyğunluq təşkil edərək forma və elementlər arasında kompozisiya bütövlüyünü meydana çıxarmışdır. Ləyənin açılan yan hissələrində hər birində rombların yaratdığı həndəsi naxış eyni şəkildə təkrarlanır. Naxışın yuxarı qismində verilmiş ensiz yarımdairələrin üzərində yenə də nöqtələrin yuxarıya doğru bütün bölgəni doldurması əsas hissə ilə uyğunlaşdırılaraq tam bir dəst halına gəlmişdir. Aftafa dairəvi gövdəli, incə qulplu, zərif boyunluğu ilə diqqəti çəksə də burada əsas olan məqamın onun üzərindəki təsvirlə bağlı olmasıdır. Mərkəzdə verilmiş təsvir səkkizguşəli ulduz və türkçülüyün simvolu olan boz qurdun bədii ifadəsi məmulatın sənət əsəri səviyyəsində təqdim edilməsinə zəmin yaradır. Alt qisimdə verilmiş sanki qaya parçalarının təsvirini rəssam mərkəzdən bir qədər də kənarda həll etməklə xırda nöqtələrin vasitəsilə sanki gecə ulduzlar parlayan göy üzünün tərənnümünü ustalıqla həyata keçirməyə nail olmuşdur. Haşiyənin eyni zamanda yarımayı tərənnüm etməsi real təsvirin böyük məna kəsb edən dəyərini bir daha meydana çıxarmışdır. Nöqtələrin eyni zamanda meydana gətirdiyi fon boz qurdun daha aydın və parlaq görünməsinə imkan yaradır. Bir qədər qabarıq şəkildə meydana çıxan heyvan təsviri məmulatın sadəcə funksional deyil, zövqlə yerinə yetirilmiş sənət nümunəsi kimi dəyərləndiyini göstərir.

Beləliklə, Lahıcda yaradılmış misgərlik məmulatları üzərində təsvir edilən heyvan təsvirləri bəzən simvolik mahiyyəti ilə bəzən isə sırf dekorativ planda verilmiş tərənnümü ilə həmin əşyaların yüksək sənətkarlığını dəyərlədirməyə imkan verir. Həmin məmulatların üzərində verilmiş insan təsvirləri əsasən orta əsrlər Şərq miniatürlərindən alınma təsirlər əsasında həyata keçirilmişdir. Misgərlik

məmulatları üzərində yer alan təsvirləri əsasən öz dinamikliyi ilə diqqət çəkərək, məmulatın ekspressiv təsirini artırmaqla onun dəyərini yüksəltmişdir. Lahıc misgərlik sənəti sahəsində tarixən formalaşan zəngin mədəni irs bu gün yerli sənətkarların fədakar əməyi sayəsində qorunub saxlanılır və inkişaf etdirilir.

Dissertasiyanın **“Lahıc misgərliyi ənənə və müasirlik kontekstində”** mövzusunda **II fəslin “Müasir dövr Lahıc misgərlik sənətinin əsas inkişaf prosesi”** adlı **1 paraqrafı** üzrə aparılan təhlillərə əsaslanaraq qeyd etmək olar ki, zərif, mürəkkəb, ornamental, eləcə də fərqli forma xüsusiyyətləri ilə hələ orta əsrlərdə Azərbaycanın yüksək əhəmiyyətə malik sənətkarlıq mərkəzlərindən biri olan Lahıcda hazırlanan məmulatlar sadəcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da çox məşhur idi. Bunun səbəbi 200-dən çox sənətkar emalatxanasının mövcud olduğu son orta əsrlərdən başlayaraq burada istehsal edilən qabların özünəməxsus nəfis tərtibatı ilə bağlıdır. Müasir dövrümüzdə fəaliyyət göstərən rəssamlar tərəfindən hazırlanmış mis məmulatların ornamental kompozisiyasında əsasən simmetrik dəqiqlik prinsipinin ön planda olması, müxtəlif milli-ənənəvi ornamental xüsusiyyətlərin fərdi yaradıcılıq üslubuna görə naxış kompozisiyalarını meydana gətirməsi günümüzdə misgərliyin əsas səciyyəsini əks etdirir. Məsələn, yerli sənətkar Hacı Əliyevin hazırladığı məcməyiləri qeyd olunanlara parlaq misal olaraq göstərmək olar. Sənətkarın yaradıcılıq nümunələrində istifadə etdiyi həndəsi formaların nəbatiləşdirilmiş bəzək elementinə çevrilməsini adətən nəbati bəzək elementlərinin həndəsiləşdirilmiş üslubu ilə qarşılaşdığımız ənənəviliyi rəssamın özünəməxsus şəkildə əks formada həll etməsi nüansı diqqəti cəlb edir. Və yaxud Lahıcda müasir dövrdə istehsal olunmuş digər bir məcməyi nümunəsində yenə də ənənə və müasirliyin birləşdiyi sənət nümunəsinin özünəməxsus yüksək zövqlə həyata keçirilməsi maraq oyadır.

Lahıcda misgərliklə məşğul olan yerli sənətkarlar sırasında usta Əliyev Kəbləmin yaratdığı məmulatlar özünü orijinal dekorativ tərtibatı ilə seçilirlər. Bunların arasında samovar nümunəsini xüsusi qeyd etmək olar. Qeyd edilən samovarı məişət məmulatı hesab edilməklə yanaşı, onu həm də yüksək zövqlə həyata keçirilmiş sənətkarlıq nümunəsi kimi də dəyərləndirmək olar ki, bunun da

səbəbə nümunənin üzərində verilmiş ornamentasiyanın onun forma quruluşuna uyğunlaşdırılaraq ifadəliliyi əldə edilməsi ilə izah etmək mümkündür. Samovarın gövdəsi enli şəkildə gələrək yuxarıya doğru boğulub yenidən enliləşir. Burada hər bir hissənin üzərində verilmiş bəzək elementlərinin cərgə ilə aşağıdan yuxarıya doğru samovarı haşiyələməsi milli ornament təsirlərini özündə əks etdirir. Ən geniş hissədə verilmiş paxlava elementlərinin aralıqlarında kiçik gül təsvirləri həkk edilmişdir. Yarımrombların tərs və düz istiqamətdəki həllini usta yuxarıya doğru zərif nəbati elementlərin əhatəsində uğurla həll etməyi bacarmışdır. Qapaq hissədə qabararıq yarpaq elementlərinin stilizə olunmuş forması məmulatın xüsusi estetikliyini meydana çıxardır. Lüləyin tutqacında sənətkar stilizə edilmiş buta elementini üz-üzə vermiş, həmin detalın daha geniş olan bir hissəsində isə samovarın yan tutqaclarında həll etmişdir.

Lahıcda hazırlanmış bir məcməyinin üzərində verilmiş incə zövqlü naxış elementlərinin dəqiq asimmetriyası, bir-birinə keçidi və onların sistemli sıralanmasında ən kiçik bir qaçırmaya, fərqə yol verilməməsi deyilənlərin parlaq təsdiqidir. Bir qədər dərin formada həll edilmiş sininin mərkəzindəki xonça səkkiz guşədən ibarət xırda yarpaq və çiçəklərin əmələ gətirdiyi zərif naxış kompozisiyası ilə diqqəti cəlb edir. Ondan sonra gələn hissə mərkəzin tünd rəngləri ilə kəskin təzad təşkil edən zərif sarı-qızılı parlaqlığın üzərində islimiyə bənzər naxış elementlərinin bütün əhatə boyu eyni ardıcıllıqla sıralanması ilə məmulatın mükəmməl bədii həllini bir daha təsdiq edir. Mərkəzdəki xonçanın naxışlarına uyğun olaraq alt qismin enli olan yan hissəsində verilmiş dördləçəkli çiçklərin yarımdairələr altında eyni ölçüdə üç sırada verilməsi zamanı yenə də ən kiçik bir ölçü yanlışlığının olmadığını görürük. Yan hissələrdə verilmiş xətti, həndəsi elementlərin özünəməxsus şəkildə bir-birinə çarpazlanaraq həll edilmiş incə bəzək forması haqqında da eyni fikirləri söyləmək mümkündür.

Ümumiyyətlə, müasir dövr Lahıcda istehsal olunan mis məmulatların klassik forması, ənənəvi ornamentsiyanın yeni stilizəsi, eləcə də sırf ənənələrə bağlı olaraq özünün müasir inkişaf xəttini davam etdirməsi də yuxarıda qeyd edilən mis məmulatların dörd qrupu üzrə davam etdirilməkdədir.

Beləliklə, Lahıcda misgərlik sənətinin müasir inkişaf prosesinə nəzər saldıqda burada əşyaların funksional əhəmiyyətinin nisbətən azalması baxımından daha çox dekorativ məmulatların meydana gəlməsi diqqəti cəlb edir. Yerli sənətkarlar müxtəlif mis məmulatların hazırlanmasında əsasən milli ənənəvi naxış elementlərində istifadə etsələr də fərdi yaradıcılıq üslubu yeni üslubların meydana gəlməsini də şərtləndirmişdir ki, buraya bəzən üslubların qarışdırılması da daxildir.

Fəslin "**Müasir dövr Lahıc misgərliyində istifadə olunan ənənəvi bəzək elementləri"** adlı **2 paraqrafı** üzrə gəlinmiş nəticəyə əsaslanaraq demək olar ki, yerli ustaların yaratdıqları müxtəlif məmulatlar üzrə həyata keçirdikləri ornament kompozisiyaları əsasən milli naxış elementləri əsasında meydana çıxmaqdadır. Məsələn, müasir dövrdə yerli sənətkar Nəzər ustanın hazırladığı bir çox misgərlik nümunələri arasında sıx rastlanan samovarlar öz quruluşu etibarı ilə həmin qədim simuzərləri xatırladır. Bu mənada istifadə edilmiş naxışların belə klassik ənənlər üzərində qurulması milli naxış ənənlərinin davamı kimi böyük əhəmiyyət daşıyır.

Mis qabların müasir dövr üçün əhəmiyyətini itirmiş funksionallığı ilə bağlı olaraq daha çox dekorativ nümunələrin hazırlanması ənənəsi geniş yayılmışdır. Buraya hər bir elementdən öncə dekorativ boşqabların daxil olması diqqəti cəlb edir. Onların təzad təşkil edən, parlaq, tünd, şux rənglərlə meydana çıxması isə diqqəti xüsusi cəlb olunması məqsədi daşıyır. Belə nümunələrdə əsasən olduqca populyar olan klassik, milli naxışlara üstünlük verilməkdədir. Məsələn, tünd yaşıl yerlik üzərində sarı və sürməyi çalarla verilmiş naxışların mərkəzdə xonçanı əks etdirməklə, paxlava, romb, zərif islimi naxışların yer alması maraq oyadır. Və yaxud digər dekorativ boşqab nümunələrində verilmiş milli həndəsi və nəbati naxışların geniş istifadəsi, həm də onların Azərbaycan xalça naxış elementlərindən alınma təsirlərinin mövcudluğu maraq oyadır.

Lahıcda istehsal edilən misgərlik məmulatlarının funksionallığıyla yanaşı, estetikliyinə də xüsusi diqqət yetirulmiş, bunun üçün ənənəvi forma və bəzək elementlərindən istifadə zamanı həm də fərdi yaradıcılıq üslublarını da müəyyənləşdirmişlər. Bəzək elementlərinin hər nə qədər oxşar quruluşa malik

olduğu iddia edilsə də kompozisiya üzrə təhlil zamanı onların heç birinin digərini təkrarlamadığını aydın şəkildə görmək mümkündür.

Mis qabların müasir dövr üçün əhəmiyyətini itirmiş funksionallığı ilə bağlı olaraq daha çox dekorativ nümunələrin hazırlanması ənənəsi geniş yayılmışdır. Buraya hər bir elementdən öncə dekorativ boşqabların daxil olması diqqəti cəlb edir. Onların təzad təşkil edən, parlaq, tünd, şux rənglərlə meydana çıxması isə diqqəti xüsusi cəlb olunması məqsədi daşıyır. Belə nümunələrdə əsasən olduqca populyar olan klassik, milli naxışlara üstünlük verilməkdədir. Məsələn, tünd yaşıl yerlik üzərində sarı və sürməyi çalarla verilmiş naxışların mərkəzdə xonçanı əks etdirməklə, paxlava, romb, zərif islimi naxışların yer alması maraq oyadır. Və yaxud digər dekorativ boşqab nümunələrində verilmiş milli həndəsi və nəbati naxışların geniş istifadəsi, həm də onların Azərbaycan xalça naxış elementlərindən alınma təsirlərinin mövcudluğu maraq oyadır.

Belə detallarda əsasən butaların istifadəsi də geniş istifadə edilməkdədir. Ümumiyyətlə, buta Azərbaycan milli ornamenti kimi olduqca qədim zamanlardan dekorativ-tətbiqi sənət nümunələrində əsas bəzək elementi olaraq tətbiq edilməyə başlanmışdır. Çiçəkli buta kimi verilmiş detalın dekorativ boşqab üzərində yarpaq kimi təravətli görünüşü məmulatın xoş ifadəsini üzə çıxarmışdır. Mərkəzdə verilmiş mərkəzi simmetriya prinsipi ilə qurulmuş girihlərin ətrafında sıralanan butalar məmulatın əsas elementi kimi özünü göstərir.

Lahıcda son illərdə həyata keçirilmiş dekorativ boşqablar arasında məmulatın əsas naxış elementi olaraq kalliqrafik yazı sistemindən istifadə edilmişdir. Burada Qurani-Kərimdən verilmiş sitat və hədislər yer almaqla həm də məmulatın mənəvi dəyərini yüksəltmişdir. Dekorativ elementin daxilində dairəvi planda yer alan işlimi naxışlarla ana haşiyədə xüsusi yazı sistemində ornamentə çevrilmiş yazı üslubu gümüşü rəngin xoş ahəngində zərifliyi, lirizmi ifadə edir.

Tədqiqata cəlb edilmiş dekorativ lövhənin bədii həlli milli naxış elementlərinin maili və yaxud fərdi mövqelərinə görə həlli sayəsində dinamik kompozisiyanı meydana çıxarmışdır. Dördbucaqlı formasında olan lövhə mərkəzində bütün əhatəyə sığacaq dairənin daxilində "saxsıda güllər" naxışı ilə həll edilmiş butaların bala

haşiyələrdə həndəsi, ana haşiyələrdə isə nilufər gülü elementi ilə bəzədilməsi ilə meydana çıxmışdır. Dördbucaqlının hər bir bucağında isə güzgü simmetriyasına əsaslanan islimi naxışlar yer almışdır.

Dekorativ məqsədli hazırlanan mis xəncərlər, bıçaqlar digər aksesuarlar kimi bədii naxış kompozisiyası əsasında ifadəli görünüşü ilə diqqəti cəlb edir. Onların üzərində verilmiş incə, zərif elementlər əsasən islimi naxış sisteminə əsaslanaraq həyata keçirilməkdədir. Onların uzunsov formasının verdiyi imkan əşyanın gümüş yerliyi üzərində islimilərin eyni tonda cızma üsulu ilə həyata keçirilərək yüksək estetik əhəmiyyət kəsb etməsini şərtləndirmişdir. Naxışlar əsasən belə xəncərlərin qabı üzərində yer alır.

**Nəticədə** tədqiqatda aşağıdakı qənaətlər əldə olunmuşdur:

1. İstər qədim, istərsə də müasir dövrdə fəaliyyət göstərmiş Lahıc sənətkarları forma və ornamental xüsusiyyətlər arasında əlaqə yaratmaqla mis məmutlarının kompozisiya bütövlüyünə nail olmaq üçün ustad bacarıq nümayiş etdirmişlər;

2. Lahıc misgərlik sənətində ənənəviliyin sırf milli ornament xüsusiyyətlərinin klassik formalar üzrə davam etdirilməsi, çox zaman improvizələrin edilməməsi yeniliyin inkar edilməsi kimi deyil, müasir dövrümüzdə sıxışdırılaraq aradan çıxarılmağa və yaxud unudulmağa başlanmış sənətin itməsinə imkan verməmək kimi dəyərləndirilir;

3. Lahıcda yaradılmış misgərlik məmulatları üzərində təsvir edilən heyvan təsvirləri bəzən simvolik mahiyyəti ilə bəzən isə sırf dekorativ planda verilmiş tərənnümü ilə həmin əşyaların yüksək sənətkarlığını dəyərlədirməyə imkan verir;

4. Həmin məmulatların üzərində verilmiş insan təsvirləri əsasən orta əsrlər Şərq miniatürlərindən alınma təsirlər əsasında həyata keçirilmişdir;

5. Misgərlik məmulatları üzərində yer alan təsvirləri əsasən öz dinamikliyi ilə diqqət çəkərək, məmulatın ekspressiv təsirini artırmaqla onun dəyərini yüksəltmişdir;

6. Lahıc misgərlik sənəti sahəsində tarixən formalaşan zəngin mədəni irs bu gün yerli sənətkarların fədakar əməyi sayəsində qorunub saxlanılır və inkişaf etdirilir;

7. Lahıcda misgərlik sənətinin müasir inkişaf prosesinə nəzər saldıqda burada əşyaların funksional əhəmiyyətinin nisbətən azalması baxımından daha çox dekorativ məmulatların meydana gəlməsi diqqəti cəlb edir;

8. Yerli sənətkarlar müxtəlif mis məmulatların hazırlanmasında əsasən milli ənənəvi naxış elementlərində istifadə etsələr də fərdi yaradıcılıq üslubu yeni üslubların meydana gəlməsini də şərtləndirmişdir ki, buraya bəzən üslubların qarışdırılması da daxildir;

9. Lahıcda istehsal edilən misgərlik məmulatlarının həyata keçirilməsində yerli sənətkarlar bir qayda olaraq funksionallıqla yanaşı, estetikliyə xüsusi diqqət vermiş, bunun üçün ənənəvi forma və bəzək elementlərindən istifadə zamanı həm də fərdi yaradıcılıq üslublarını da müəyyənləşdirmişlər. Bəzək elementlərinin hər nə qədər oxşar quruluşa malik olduğu iddia edilsə də kompozisiya üzrə təhlil zamanı onların heç birinin digərini təkrarlamadığını aydın şəkildə görmək mümkündür.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**


1. Lahıc bölgəsində istehsal edilən misgərlik məmulatlarının bədii xüsusiyyətləri // “Axtarışlar”. AMEA-nın Naxçıvan bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutu – Naxçıvan – 2019, №4, cild 12 – s.157-161.
2. Lahıc misgərliyinə aid lampa və çıraqların bədii tərtibat xüsusiyyətləri // “Sənət Akademiyası”. Bakı Xoreoqrafiya Akademiyası – Bakı – 2020, №2 (10) – s.33-36.
3. Lahıcda istehsal olunmuş mis sərpuşlarının dekorativ xüsusiyyətləri // “Axtarışlar”. AMEA-nın Naxçıvan bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutu – Naxçıvan – 2020, №2, cild 13 – s.155-158.
4. Форма и орнаметальные особенности медных изделий Лагича // “Paradigmata poznani” - Prague – 2020, №4 – s.46-49.
5. Lahıc misgərlik sənətində çil camların bədii sənətkarlıq xüsusiyyətləri // “Elmi əsərlər”. ADMİU – Bakı – 2020, №28 – s.183-187.
6. Художественно-эстетические особенности изделий из меди // Art / COLLOQUİM – JOUDNAL. Micdzynarodowe czasopisto naukowe. Architecture,

Technical science, Veterinary science, Agriciltural sciences – 2021, №22 (109) – Czesc 1 – s.22-24.

7. Lahıcda istehsal olunan sinilərin bəzək elementləri // “Mədəniyyət: problemlər və perspektivlər. “Qarabağ Azərbaycandır!”. Doktorant və gənc tədqiqatçılarının Beynəlxalq elmi konfrans. ADMİU – Bakı – 2021, fevral – s.333-336.
8. Müasir dövr Lahıc misgərliyində istifadə olunan ənənəvi bəzək elementləri // “Axtarışlar”. AMEA-nın Naxçıvan bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutu – Naxçıvan – 2022, №1, cild 16 – s.141-145.
9. Орнаментальное своеобразие медных изделий из Лагича // “From The 20th of Yanuary to Karabakh Victory” – Kars – 2023, 28 yanvar – s. 572-576.
10. Lahıcda yaradılan mis samovarların bədii xüsusiyyətləri // “Müasir informasiya məkanında turizmin dayanıqlı inkişafı və sosial-mədəni innovasiyalar”. Respublika elmi-nəzəri konfransı – Bakı – 2023, 26 may – s.572-576.
11. Становление и развитие медного дела в Азербайджане // XVI Международная научная конференция “Искусство глазами молодых”. Сибирский Государственный Институт Искусств им. Дм. Хворостовского – Красноярск - 11-12 апреля 2024 – с.73-75.

Dissertasiyanın müdafiəsi 12 sentyabr 2024-cü il tarixində saat 14:00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası AZ 1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının www.adra.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 8 avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11 iyul 2024
Kağızın formatı: A5
Həcm: 38.095
Tiraj: 100